# ADLAR NƏ QƏDƏR BİZİM ÖZÜMÜZDÜRSƏ...

## Bir o qədər də dünənimiz, bu günümüz, gələcəyimizdir

### Professor Sayalı Sadıqovaya məktub

*Həqiqət bir dünyadır, sevərək gələ bilsək?*
*Dünya bizim olardı ürəkdən gülə bilsək!*

**Müəllif.**



Hörmətli Sayalı xanım, adlar uğrunda dayanıqlı, inamlı və inadlı mübarizələrinizi müşahidə edirəm. Bəri başdan deyim ki, bu, sadəcə bir dövlət tapşırığı deyil, həm də ziyalının vətəndaş qeyrəti ilə mübarizəsinin motividir. Əgər bu dövlət tapşırığıdırsa, xüsusilə, qürurvericidir. Əgər belə demək mümkünsə, bu qeydləri sizin işinizə yarayacaq mənəvi dəstək kimi qələmə aldım.

Son vaxtlar və demək olar ki, müstəqilliyimizin bərpasından üzü bəri türk ruhunun oyadılması, tarixi-mənəvi keçmişin indiki durumda gündəmə gətirilməsi üçün inamlı və inadlı addımlar atılır. Bu addımlar özünü orfoqrafiya qaydalarının yeniləndirilməsində, dilə daha çox türk kökənli sözlərin gətirilməsində, ərəb və fars qandallarından xilas olmaq cəhdlərində özünü göstərir. Kimsəyə elə gəlməsin ki, bu mübarizə asan başa gəlir. Türk çevik düşüncə sahibidir. Sözünü sərrast, qısa və aydın deyir. Doğrudur, türk kökənli dillər içərisində həm ərazi baxımından, həm də mənəvi olaraq azəri türkcəsi tarixən ən qəddar işğala məruz qalıb. Ərazilərin işğal olunmağı bir tərəfə, dilin özü də işğal olunub. Ayrı-ayrı Şimali Azərbaycan bölgələrinə köklü ərəb tayfaları köçürülüb. Məqsəd Ərəbistanın isti cəhənnəmindən işğalın mənfətini təmin etmək üçün Şimali Azərbaycan cənnətinə köçürülən böyük ərəb tayfaları nəinki ərazinin faydasını, qazancını Ərəbistana göndərməli idi, eləcə də, bölgənin mənəvi mühitini dəyişməli idi. Doğrudur, bu siyasətin belini Babək iqtidarı qırdı. 22 il ərzində Şimali Azərbaycanla ərəb xilafəti arasında keçilməz sədd yaratdı. Yeni axınlar gələ bilmədi, mənəvi mühitə və dilə təcavüz ərazi işğalı ilə tamamlana bilmədi. Elə ona görə də Azərbaycan xalqı nə qədər islam fanatizminin təsiri altına düşməli olsa da, Babəkin adına sevgini ruhunda, varlığında yaşatdı.

Təəssüf ki, bu gün də Babək qüdrətinə qarşı savaş davam edir. Hətta elə manqurtlar tapılır ki, çəkinmədən mənsub olduğu etnosdan utanmadan Babəkin ünvanına ekrandan, efirdən, mətbuatdan hədyanlar yağdırırlar. Bütün bunlar bir tərəfə.

Dilin demokratikləşməsi uğrunda mübarizə davam edir və yenə müqavimətlə qarşılaşır.

Hörmətli Sayalı xanım, açığı yazı qaydalarını, dilin sadələşməsi, ərəb buxovundan, fars qandalından xilas edilməsi uğrunda mübarizələrə bütün varlığımla həmrəy olduğumu bildirmək istəyirəm. Əslində, bu sözləri də ona görə yazıram ki, bir Axundovun gücü bütün mühitinə bərabər idi. Çünki o, cəhalətə gömülmüş kütləyə yox, mənsub olduğu xalqın içində yanan işığa güvənirdi. Çox təəssüf ki, elmi bu günün özündə belə, cahilliyənin ibadətinə qurban verməyə hazır olanların sayı artmaqdadır.

...Vaxtı keçmiş apostrof təzədən gündəmə gətirilir. ...Və çox təəssüf ki, biz də belə rəyləri çap eləməli oluruq. Bu artıq müqavimət haqqında təsəvvür yaratmaq üçün göstərilən faktdır. İndi də adlar haqqında. Aydın Abinin ad ensiklopediyası, mərhum Osman Mirzəyevin «Adlarımız» və digər tədqiqatçıların da klassik ədəbiyyatımızda işlənən adlarla bağlı şərhləri də məlum mövzu ilə bağlı müəyyən nəticələrə gəlməyə imkan verir: axı insan nə qədər Məhəmmədqulu olar, Hüseynqulu olar, Allahverdi olar, İmamverdi olar, lap elə Əli Rza olar, Həsənəli olar, Hüseynəli olar. Axı bu ölkə ad sarıdan mamedlərdən, əhmədlərdən cana doyub. Hardadır türk tarixinin biliciləri? Xüsusilə, anomastika biliciləri. Qədim türk kökənli adların bərpasının vaxtı çatmayıbmı? Hərdən boş vaxtlarımda sadə, qədim türk kökənli adları sıralayıram. Elə təkcə bugünkü ad sırasına baxaq:

Alam, Aman, Anam, Aram, Alar, Amar, Anar, Arar, Alan, Aran, Anan, (bu ad sırası çox zəngindir və xeyli artırmaq olar), Ulac, Umac, Unac, Urac, Ular, Umar, Unar, Urar, Ulam, Umam, Unam, Uram, Ulay, Umay, Unay, Uray, Ulan, Uman, Unan, Uran, Uluğ, Umuğ, Unuğ, Uruğ, Uday, Uzay, Ucay, Umal, Unal, Ural, Uyar, Ucar, Uyal, Uyam, Uyan, Uyar, Uçal, Uçam, Uçan, Uçar və s.

Belə ad sırasını "A" hərfi ilə də və digər hərflərlə də başlanğıc tutub sıralamaq olar. Ayrı-ayrı vaxtlarda ədəbi-bədii əsərlərimdə belə ad sıralanmasına meydan vermişəm.

Hörmətli Sayalı xanım, indiki sürətli informasiya axınında, üstəlik də çoxsaylı qayğıların fonunda ayrı-ayrı bədii əsərlərdə gedən belə məlumatları (yəni türk əsilli adları) kimsənin diqqətini cəlb eləməyinə o qədər də inanmıram. Amma əslində, adla bağlı sizin də rəhbərlik elədiyiniz komissiyanın daxil olduğu bütöv bir institutun işləməlidir. Ola bilsin ki, gələcəkdə belə bir ad institutu yaradıldı. Bu gün sizin xidmətiniz həmin institutun özüllərini yaratmaqdadır. Bax, məni sevindirən adlarımızın ruhumuza uyğun kök üzərinə qayıtmasına inamı yaradan da budur.

Həqiqətən bu gün qədim türk ruhunun dilimizdə bərpası uğrunda mübarizəni türk kökənli mübarizə ilə müvazi görmək məni sevindirir. Professor Sayalı Sadıqovanın mətbuatda və televiziyadakı çıxışlarından başa düşmək olar ki, bu xətt bir növ əqidəli və inamlı bir mübarizə xəttidir.

Mən demirəm ki, Azərbaycan türkcəsini hansısa dilin əlavəsinə çevirək, ancaq bütün gücümüzlə mübarizə aparmalıyıq ki, ümumtürkcəyə doğru yolda qarşımıza çıxan maneələri dəf edə bilək. Bu yolda ən üstün amillərdən biri adlarımızı bərpa eləməliyik. Bir sözlə, ərəb işğalından əvvəlki adlarımızın poetikasına qayıtmalıyıq. Bu geriyə qayıdış deyil, milli ruha, soya, kökə qayıdışdır.

Professor Sayalı Sadıqova, diqqət elədinizsə, indi sizə rəsmi müraciət elədim. Hər bir ad bir körpənin ünvanıdır. Və bu gün siz Azərbaycan adlarının analıq missiyasını daşıyırsınız. Bu çox şərəfli missiyadır. Axıracan türk andına sadiq olmağınızı arzulayardım.

Ad, həm də kimliyimizdir. ADLAR NƏ QƏDƏR BİZİM ÖZÜMÜZDÜRSƏ... bir o qədər də dünənimiz, bu günümüz, gələcəyimizdir.

***Əli Rza XƏLƏFLİ***
*("Kredo" qəzeti, №27(915)*
*25.10.2018)*